MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU

# Mədəni demokratiyanın 60 ili

“Biz müxtəlifliyin demokratiyanın bir qüvvəsi olduğuna inanır və dialoqu sülh quruculuğunun bir vasitəsi kimi təşviq edirik.”

Avropa Şurası Avropadakı aparıcı insan hüquqları təşkilatıdır. Onun 47 üzvü var və onların 28-i Avropa İttifaqının üzv dövlətidir.

Mədəniyyət digər insanların başa düşülməsində və müxtəlifliyə hörmət edilməsində əsas rolu oynayır. Buna görə də 1954-cü ildə Avropa Şurası Avropa Mədəniyyət Konvensiyasını qəbul etmişdir. Bu Konvensiya Avropada mədəniyyət, təhsil, gənclik, idman, dillər kimi sahələrdə əməkdaşlığı və ümumi dəyərlərin ötürülməsini təşkil edir.

Bu sərginin məqsədi Avropa Şurasının bu sahələrdəki fəaliyyətini və onun Avropa və dünyada demokratiyanı və insan hüquqlarını gücləndirməyə necə yardım etdiyini göstərməkdir.



www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE

CONSEIL DE L’EUROPE

MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU



# Birlikdə öyrənmə

"Mən İnterneti daha yaxşı məkana çevirirəm, çünki bir şey yazıb göndərməzdən öncə düşünürəm."

**Armand Sonez,** Tələbə, Albaniya

**Demokratik Vətəndaşlıq və İnsan Hüquqları sahəsində Təhsil haqqında Xartiya**

Demokratiya və insan hüquqları bizimlə başladığı üçün Xartiya bu dəyərləri tətbiq etmək və cəmiyyətdə səmərəli və müsbət rol oynamaq yollarının tapılmasında bizə yardım edir. Avropa Şurasının bütün 47 üzv dövləti Xartiyanı imzalayıb və təhsildə zorakılığın və ayrı-seçkiliyin bütün növlərinə xüsusən də hədə-qorxuya qarşı mübarizə aparmağa söz verib.

**"Nifrət nitqinə yox" Hərəkatı**

Bu layihə gənclərə və gənclər təşkilatlarına internetdəki irqçiliyi və ayrı-seçkiliyi müəyyənləşdirmələrinə və onlarla mübarizə aparmalarına kömək edir. İnternet gənclərin sosial dünyasının bir hissəsidir və onlar bunun qoruyucusu olmalıdırlar. Bu hərəkat Avropa Şurasının bütün üzv dövlətlərində həyata keçirilir.

**Pestalozzi Proqramı**

Bu proqram çərçivəsində bütün Avropada ildə 1000 müəllim təlim keçir. Onun internetdə 100-dən çox təlim materialı və internet icması mövcuddur. Öyrənmə mərkəzli və interaktiv metodlar vasitəsilə o, demokratik cəmiyyətlərdə lazım olan münasibətləri, bacarıqları və biliyi ötürür. Təhsil işçilərinə təlimin keçirilməsi ilə bu proqram öyrənənlərin təhsildəki gündəlik təcrübəsinə təsir edir.




DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDIN :

www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU



# Başqaları ilə əlaqə saxlama

"Özünü qiymətləndirmə öyrənən şəxslərə güclü həvəsləndirici təsir bağışlayır."

**Serxio Qarsiya,** Dil müəllimi, İspaniya

## Dil tədrisi

Avropa Şurası xarici dilin tədrisini təkmilləşdirmək üçün proqramlar və vasitələr hazırlayır. Onun nailiyyətləri içərisində yazılı və danışıq dil bacarığını təsvir edən beynəlxalq səviyyədə tanınan "A1-C2" sistemi və yetkinlik yaşına çatmış miqrantların inteqrasiyası üçün nəzərdə tutulmuş xüsusi vasitələr vardır.

## Qras şəhərindəki Avropa Müasir Dillər Mərkəzi

Qras Mərkəzi ekspertlərlə birlikdə məktəblərdə dilin tədrisi üçün yenilikçi həll yollarını inkişaf etdirir. Bu Mərkəz bütün Avropada müəllimlərə təlim keçənlər və təhsil işçiləri üçün beynəlxalq seminar və kurslar təşkil edir.

## Avropa Dillər Günü

Hər il sentyabrın 26-da mədəniyyətlərarası anlaşmanı və qitəmizdəki sayı 225-ə çatan yerli dillərin istifadəsini təşviq etmək məqsədilə Avropanın hər yerində tədbirlər keçirilir.

## Regional və Azlıqların Dilləri üzrə Avropa Xartiyası

Xartiya ənənəvi olaraq bir ölkənin ərazisində istifadə edilən regional və azlıqların dillərini təşviq və müdafiə edir. O, dilləri həm özəl həm də ictimai yerlərdə, xüsusən də təhsildə, kütləvi informasiya vasitələrində, dövlət idarələrində və məhkəmələrdə istifadə etmələri üçün bu dillərin daşıyıcılarına imkan yaradır. Xartiyaya uyğunluğa ekspert komitəsi nəzarət edir.




DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDIN :

www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU

# Yaşadığımız yerə bağlanma

“Məndən fərqli həyat hekayəsi olan insanlarla yeni dostluqlar qurmağı çox sevirəm.”

**Yohan Şmit**, Şagird, Almaniya

### Mədəniyyətlərarası şəhərlər

Bu şəbəkə ona daxil olan yerli hakimiyyət orqanlarına mədəni müxtəlifliyi idarə edə bilmək üçün kömək edir. Vəhdətin inkişafına yardım etmək və mədəni qarşıdurma ilə mübarizə aparmaq üçün vasitələrin yaradılması məqsədilə ictimai sahədə müxtəlif qrupların bir-birilərі ilə qaynayıb-qarışmasını və qarşılıqlı əlaqələrini təşviq edir.

### Landşaft Konvensiyası

Şəhər və ya kənd landşaftı sadə və gözəçarpanlığından asılı olmayaraq həm həyatımız həm də təbii və mədəni irsimizdir. Konvensiya yüksək keyfiyyətli memarlıq və şəhər dizaynını təşviq edir, vətəndaş və birliklərə ətraf mühitlərinin qorunmasında və idarəetməsində fəal rol oynamaq üçün şərait yaradır. O, Avropa Şurasının 38 üzv dövləti tərəfindən ratifikasiya edilib.

### Demokratik idarəetmə

Avropa Şurası yerli və regional hakimiyyət orqanlarına səmərəli, cavabdeh və şəffaf olmalarına yardım edir. Məsələn, Yerli Hökumətin İslahatı üzrə Ekspertiza Mərkəzinin həyata keçirdiyi proqramlara ictimai etika, liderçiliyin inkişafı, yerli maliyyə və bələdiyyələrarası əməkdaşlıq daxildir.



DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDIN

www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU

# Mədəniyyəti bütün müxtəliflikləri ilə paylaşma

“Avropa Şurasının 30-cu İncəsənət Sərgisi hit-parada bənzədiyi üçün bu mənada xüsusi əhəmiyyət daşıyır.”

**Hilkka Hiiop,** Kumuda Baş Mühafiz, Tallin, Estoniya

## Mədəniyyətlərarası dialoq

2008-ci ildə “Mədəniyyətlərarası Dialoqa dair Ağ Kitab”ın qəbulundan sonra Avropa Şurası müəllimlərə təlimlərin keçirilməsi, azlıqların qorunması və sosial vəhdət, həmçinin dini icmalar və qeyri-dini əqidələrin təmsilçiləri ilə illik dialoqun da daxil olduğu bir sıra proqramları həyata keçirmişdir. “Mədəniyyətlərarası Görüşlərin Avtobioqrafiyası” vasitəsi ilə fərdləri istər üz-üzə istərsə də vizual mediyaların sayəsində şəxsi təcrübələrdən öyrənməyə çağırır.

## Mədəniyyət yolları

1987-ci ildə “Santiaqo de Kompostela Zəvvar Yolu”nun açılmasından bəri Avropa Şurası sərhədləri aşan əlaqələri və mədəniyyətlərarası dialoqu 26 Mədəniyyət Yolu vasitəsilə təşviq etmişdir. Fərqli mədəniyyətlərə və kimliklərə sahib yerlər və insanlarla birləşən tematik yollar ən az tanınan regionların davamlı inkişafına öz töhfəsini verir. Bunlara “Finikiyalılar”, “Yəhudi irsi”, “Dulusçuluq”, “Mozart” və “Hansa” daxildir.

## İncəsənət sərgiləri

İncəsənət sərgiləri Avropanın mədəni kimliyinə yenidən məna vermək məqsədilə 1954-cü ildən həyata keçirilməyə başlamışdır. Onlar Avropa incəsənət tarixində öz izini buraxmış əsas hərəkatları, şəxsiyyətləri və hadisələri tanıdır. Sayca 30-cu olan “Azadlıq arzusu. 1945-ci ildən bəri Avropada incəsənət” adlı sərgi azadlıq, insan hüquqları və demokratiyanı araşdıran sənətkarları təqdim edir (Berlin, Milan, Tallin və Krakov).

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDIN




www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU

# Asudə vaxt sayəsində birləşmə

“Bu gün Avropa Şurası yarışların saxtalaşdırılmasına qarşı mübarizədə siyasi təşəbbüsü üzərinə götürmüşdür. Avropa İttifaqı təsisatlarının bu yolla gedəcəyinə ümid edirəm.”

**Mişel Platini,** UEFA-nın Prezidenti, Fransa

## İdman

Avropa Şurası sosial inteqrasiyaya, dözümlülüyə və anlaşmaya şərait yaratmaq üçün müxtəlifliyi idmanda və idman vasitəsilə təşviq edir. O, qadınları, etnik azlıqları, əlilliyi olan şəxsləri və homofobiya ilə mübarizəni xüsusi olaraq qeyd edir. Təşkilat dürüst oyunu *(fair play)* təşviq edir və dopinqə, tamaşaçı zorakılığına və yarışların saxtalaşdırılmasına qarşı mübarizə apararaq idmanın idarəetməsinin daha şəffaf olması istiqamətində çalışır.

## Eurimages

Eurimages kinematoqrafiya əsərlərinin birgə istehsalını, paylanmasını və göstərilməsini dəstəkləyərək Avropa filmini təşviq edir. 1988-ci ildə qurulmuş Fond 1500 Avropa filminə 474 milyon avrodan çox pul ayırmışdır. Eurimages-ın dəstəklədiyi 60-dan çox film nüfuzlu mükafatlara layiq görülmüşdür : Sezarlar, Qızıl Palma Budaqları, Oskarlar, Qızıl Şirlər.

## Avropa İrs Günləri

Hər ilin sentyabr ayında 50 ölkə adətən ictimaiyyətə bağlı olan tarixi binaların qapılarını açaraq Avropa İrs Günlərində iştirak edir. Keçirilən mədəni tədbirlər yerli sənətkarlıqları və adətləri, memarlığı və incəsənət əsərlərini nümayiş etdirərək mədəniyyətlərin və dillərin fərqliliyindən asılı olmayaraq vətəndaşları bir araya gətirir. Avropa İttifaqı bu Günləri qeyd etmək üçün Avropa Şurasına qoşulmuşdur.




DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDIN :

www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE
CONSEIL DE L’EUROPE

MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU



# Gənclərlə vətəndaşlığı qurma

“Bu layihə bir gənc liderə çevrilməm üçün, hansı ki gəncləri sülh dialoquna cəlb etmək istəyir, böyük bir fürsətdir.”

**Seda Qutez,** Gənc Sülh Səfiri, İspaniya




### Sülh quruculuğu

“Gənc Sülh Səfirləri” insan hüquqlarını və demokratiyanı zorakılıq və münaqişələr üzündən ayrılmış icmalarda təşviq etmək üçün işlər həyata keçirir. Hər il keçirilən “Gənclərin Sülh Düşərgələri” münaqişə bölgələrindən olan gənc liderləri bir araya gətirir. Bir çoxları üçün bu, “digər tərəfdən” olan gənclərlə onların ilk danışmaq fürsətidir.

### Gənclərin Treyninq Proqramları

Hər il 5000 gənc lider Avropa Şurasının Budapeşt və Strasburqda yerləşən Avropa Gənclik Mərkəzlərində təlimlər keçir. Dərslərin böyük təsiri var, çünki gənc liderlər öyrəndiklərini birliklərinin üzvlərinə ötürürlər. 15000-dən çox gənc Avropa Gənclər Fondunun anlaşmanı, dözümlülüyü və həmrəyliyi təşviq etmək üçün dəstəklədiyi layihələrdən bəhrələnir.

### Gənclərin iştirakı

Avropa Şurası dünyada gənclər təşkilatlarına “birgə idarəetmə” sistemi sayəsində gənclik siyasəti, proqramlar və prioritetlər barəsində qərar qəbul etmək üçün hökumət təmsilçiləri ilə eyni hüququ verən yeganə hökumətlərarası təşkilatdır.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDIN :

www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE
CONSEIL DE L’EUROPE

MƏDƏNIYYƏT: DEMOKRATIYANIN QƏLBI VƏ RUHU

# Dəyərləri tarix və irs sayəsində paylaşma

“Avropa Şurası və Yad Vaşem arasında mövcud olan bu razılaşma Avropada Holokostun öyrədilməsini dərinləşdirmək və gücləndirmək istəyindən xəbər verir.”

**Avner Şalev**, Yad Vaşemin Sədri, Qüds (2012)

### Tarixin tədrisi

Layihələr dərsliklərin yenidən işlənməsi və Avropada tarixin tədrisi proqramlarında islahatların aparılması və həmçinin müəllimlər üçün tədris materiallarının hazırlanmasına aiddir. Məqsəd sadəcə siyasi hadisələrdən, müharibələrdən və tez-tez digər millətləri “düşmən” elan edən milli tarixdən bəhs etmənin yaratdığı təhlükələri göstərməkdir

### Bəşəriyyətə qarşı cinayətlər

Avropa Şurası yeni nəsillərə keçmişi başa düşməyə, mənəvi şüuru inkişaf etdirməyə və bəşəriyyətə qarşı cinayətlərin qarşısını almaq üçün Avropa vətəndaşı kimi məsuliyyətli olmağa yardım edir. Holokostdan sağ çıxanlarla bütün Avropada keçirilən müəllim seminarları tarix, incəsənət və musiqi dərsləri üçün material verir.

### İrs siyasəti

Avropa Şurası dövlətlərə öz mədəni varlıqlarını qorumaq, idarə etmək və inkişaf etdirmək məqsədilə sistemləri qurmaqda yardım etmək üçün bütün Avropada çalışır. Dörd əsas konvensiya Avropa Şurasının bu sahədəki prinsiplərini əks etdirir. Onlar demokratik inkişafı, müxtəlifliyə hörməti və sosial-iqtisadi inkişafı təşviq edir.

DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN SKAN EDIN :



www.coe.int

İnsan hüquqları, demokratiya və qanunun aliliyinin qoruyucusu olan Avropa Şurası

COUNCIL OF EUROPE
CONSEIL DE L’EUROPE